# Ümummilli lider və Qərbi Azərbaycan

**Dünən Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasında Bakı Politoloqlar Klubunun təşkilatçılığı ilə "Qərbi Azərbaycan irsinin tanıdılmasında Ulu öndər Heydər Əliyevin rolu" mövzusunda elmi-praktiki konfrans keçirilib.**

Məclisdə əvvəlcə tanınmış tarixçilərin Qərbi Azərbaycanla bağlı məqalələrinin toplandığı "Qərbi Azərbaycan: siyasi-tarixi aspektlər" kitabının təqdimatı olub.

Bakı Politoloqlar Klubunun sədri Zaur Məmmədov bildirib ki, Qərbi Azərbaycana qayıdış məsələsi Azərbaycan dövlətinin qarşısındakı duran prioritet məsələlərdən biridir. Prezident Kitabxanasının şöbə müdiri, tarix üzrə fəlsəfə doktoru Nazim Mustafa diqqətə çatdırıb ki, ötən əsrdə ermənilərin davamlı olaraq Qərbi Azərbaycanda törətdikləri deportasiya və soyqırımları xalqımızın bu torpaqlardakı etnik-mədəni irsinin məhv edilməsi ilə müşayiət olunub.

Qərbi Azərbaycan İcmasının İdarə Heyətinin sədri, Milli Məclisin deputatı Əziz Ələkbərli qeyd edib ki, Ulu öndər Heydər Əliyev Qərbi Azərbaycan mövzusunu ilk dəfəgündəmə gətirib, erməni deportasiya və soyqırımlarına ilk dəfə siyasi qiymət verib, qaçqınların problemlərini nizama salıb.

**XQ**

Xalq qəzeti .- 2023.- 31 oktyabr,№238.- S.5.